# Uşaq Qaynar Xəttinin İllik HESABATI

2024

Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai Birliyi

ÜMİDLİ GƏLƏCƏK
SOSİAL TƏŞƏBBÜSLƏR İCTİMAİ BİRLİYİ

# Uşaq Qaynar Xətti

Ailə Qadın Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyinin əməkdaşlığı, Azercell Telekom, Avropa İttifaqı və UNİCEF Azərbaycan ofisinin maliyyə dəstəyi ilə Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai Birliyinin sosial xidmət mərkəzi olan Azərbaycan Uşaq Qaynar Xətt xidməti öz fəaliyyətini 2024-cü ildə də davam etdirmişdir.

**Layihənin əsas məqsədi:**
Azərbaycan Uşaq Qaynar Xətt xidmətinin əsas məqsədi problemlə üzləşmiş hər bir uşağa sosial xidmət, psixoloji və hüquqi yardım, emosional dəstək, üzləşdiyi çətinliklərin və problemlərin həllinə dair məsləhətlər vermək, onların müraciətlərini digər müvafiq xidmətlərə yönləndirilməsini təmin etmək və təxirəsalınmaz kömək göstərməkdir. Təklif edilən xidmət dövlət uşaq müəssisələrində olan, küçədə yaşayan və işləyən, istismara və zorakılığa məruz qalan, psixoloji və emosional problemlərlə üzləşən, fiziki və əqli imkanları məhdud olan, habelə sosial-təhlükəli vəziyyətdə yaşayan ailələrdən olan, hüquqları pozulmuş, qanunla münaqişədə olan, xüsusi qayğıya və müdafiəyə ehtiyacı olan hər bir uşaq və uşağın problemi ilə bağlı hər kəs üçün nəzərdə tutulmuşdur. Azərbaycan Uşaq Qaynar Xətt xidmətinin hədəf qrupu 18 yaşına çatmamış uşaqları və onların problemi ilə əlaqədar hər bir şəxsi əhatə edir. Azərbaycan Uşaq Qaynar Xətt xidməti fəaliyyətini Azərbaycan Respublikası Rabitə, Nəqliyyat və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən istifadəyə verilmiş 116111 qısa nömrəsi, 4 mobil nömrə, elektron poçt, internet səhifəsi, facebook və instagram sosial şəbəkələri və İOS və Android sistemləri üçün nəzərdə tutulmuş mobil əlavə vasitəsilə həyata keçirir. Azərbaycan Uşaq Qaynar Xətt xidmətinin əsas iş prinsipi – məxfilikdir. Uşaq Qaynar Xəttinə daxil olan bütün məlumatlar məxfi saxlanılır. Yalnız ehtiyac yarandıqda, əgər problemin həlli bunu tələb edirsə və müraciət edən buna razılıq verirsə, onun barəsində məlumat müvafiq təşkilat və şəxslərə ötürülə bilər. Azərbaycan Uşaq Qaynar Xətt Xidmətinə 2010-2024-cü il Dekabr ayı daxil olmaqla 75600- dən çox müraciət daxil olmuşdur.

# XİDMƏT İSTİQAMƏTLƏRİMİZ

Azərbaycan Uşaq Qaynar Xətt xidmətinin əsas iş prinsipi - məxfilikdir. Uşaq Qaynar Xəttinə daxil olan bütün məlumatlar məxfi saxlanılır. Yalnız ehtiyac yarandıqda, əgər problemin həlli bunu tələb edirsə və müraciət edən buna razılıq verirsə, onun barəsində məlumat müvafiq təşkilat və şəxslərə ötürülə bilər.

- SOSİAL PROBLEMLƏRİN HƏLLİNƏ DƏSTƏK
- SIĞINACAĞA YÖNLƏNDİRMƏ
- DÖVLƏT QURUMLARI İLƏ ƏMƏKDAŞLIQ
- TELEFONDA PSİXOLOJİ DƏSTƏK
- MƏŞĞULLUQ PROBLEMLƏRİNİN HƏLLİNƏ DƏSTƏK
- HÜQUQİ YARDIM

# 2024-cü ildə Azərbaycan Uşaq Qaynar Xətt Xidmətinin Fəaliyyəti

2024-cü il ərzində Azərbaycan Uşaq Qaynar Xətt Xidmətinə ümumilikdə 3635 müraciət daxil olmuşdur. Xidmət müxtəlif vasitələrlə müraciətlərin qəbulunu təmin edərək, uşaqların və ailələrin problemlərinə operativ reaksiya göstərmişdir.

Müraciətlərin Daxilolma Vasitələri və Statistikası

1. Şəhər telefonları vasitəsilə:
   - Müraciətlərin sayı: 145
2. Mobil nömrə vasitəsilə:
   - Müraciətlərin sayı: 2617
3. Sosial platformalar vasitəsilə (Instagram, Facebook, Gmail, veb-sayt):
   - Müraciətlərin sayı: 873



# Müraciətlərin sahələr üzrə təsnifatı

2024-cü il ərzində Azərbaycan Uşaq Qaynar Xətt Xidmətinə daxil olan müraciətlərin sahələr üzrə təhlili göstərmişdir ki, zənglərin əksəriyyəti uşaqların hüquqlarının qorunması, psixoloji dəstək və sosial problemlərin həlli məqsədini daşıyır.

Müraciətlərin Sahələr üzrə Təsnifatı və Statistikası

1. Psixoloji problemlərlə bağlı müraciətlər:
   - 618 müraciət
   - Əsasən uşaqların psixoloji vəziyyəti, stres və emosional çətinliklərlə bağlı mövzuları əhatə etmişdir.
2. Təhsil sahəsi üzrə müraciətlər:
   - 290 müraciət
   - Buraya məktəblərdəki problemlər, dərs yükü, müəllim-şagird münasibətləri və digər təhsil ilə bağlı məsələlər daxildir.
3. Sosial sahəyə aid müraciətlər:
   - 364 müraciət
   - Ailə daxili münasibətlər, sosial yardımlar və ictimai dəstək məsələləri bu kateqoriyaya daxil olmuşdur.
4. Hüquqi sahə ilə bağlı müraciətlər:
   - 1090 müraciət
   - Əsasən uşaqların hüquqlarının pozulması, məhkəmə işləri, aliment məsələləri və hüquqi məsləhətlərin alınması ilə bağlı müraciətlərdir.
5. Səhiyyə sahəsinə aid müraciətlər:
   - 73 müraciət
   - Uşaqların sağlamlığı ilə bağlı məsələlər, xəstəliklərə dair məsləhətlər və tibbi xidmətlərə yönləndirmələr bu kateqoriyaya aiddir.
6. Digər zənglər:
   - 1200 müraciət
   - Buraya fərdi və ümumi xarakterli suallar, xidmət haqqında məlumat sorğuları və digər müxtəlif mövzular daxildir.



# AUQX 2024-cü il Yanvar-Dekbar tarixləri ərzində daxil olan müraciətlərin 400-ü isə naməlum (anonim) şəxslər tərəfindən edilmişdir

2024-cü il ərzində Azərbaycan Uşaq Qaynar Xətt Xidmətinə daxil olan müraciətlərin sahələr üzrə təhlili göstərmişdir ki, zənglərin əksəriyyəti uşaqların hüquqlarının qorunması, psixoloji dəstək və sosial problemlərin həlli məqsədini daşıyır.




Zənglərin yaşlar üzrə təsnifatı cədvəldə qeyd edildiyi kimidir.




AUQX 2024-cü il Yanvar-Dekabr tarixləri ərzində 18 yaşına qədər olan müraciətlərin yaş kateqoriyasına görə təsnifatı aşağıdakı kimidir

| 18 yaşına qədər olan müraciətlərin yaş kateqoriyasına görə təsnifatı | SAY |
|---|---|
| **10 yaşa qədər** | **39** |
| **11 – 14 yaş arası** | **201** |
| **15 – 18 yaş arası** | **196** |

# İLKİN VƏ TƏKRAR ZƏNGLƏRİN SAYI

## Azərbaycan Uşaq Qaynar Xətt Xidmətinə 2024-cü ildə İlkin və Təkrar Müraciətlərin Təhlili



2024-cü il ərzində Azərbaycan Uşaq Qaynar Xətt Xidmətinə ümumilikdə 3635 müraciət daxil olmuşdur. Bu müraciətlərdən 1999-u ilkin, 1636-sı isə təkrar müraciətlər olaraq qeydə alınmışdır.

Müraciətlərin Təsnifatı və Statistikası

1. İlkin müraciətlər:
    - 1999 müraciət
    - İlkin müraciətlər xidmətlə ilk dəfə əlaqə yaradan şəxslər tərəfindən edilmişdir. Bu müraciətlər əsasən yeni problemlərin bildirilməsi və ya dəstək üçün müraciət edənlərin ilkin məlumatlandırılmasını əhatə edir.




1. Təkrar müraciətlər:
    - 1636 müraciət
    - Təkrar müraciətlər isə əvvəllər müraciət etmiş şəxslər tərəfindən edilmişdir. Bu müraciətlər, adətən, əvvəlki problemlərin davamı, əlavə dəstək tələbi və ya vəziyyətin monitorinqi ilə bağlı olur.

**2024-cü il ərzində Azərbaycan Uşaq Qaynar Xətt xidmətinə 816 zorakılıq halı ilə bağlı müraciət daxil olmuşdur. Bu ildə psixoloji və fiziki zorakılıq halları ilk sıradadırlar.**

| ZORAKILIĞIN NÖVÜ | MÜRACİƏTLƏRİN SAYI |
|---|---|
| PSİXOLOJİ | 237 |
| FİZİKİ | 343 |
| CİNSİ | 19 |
| ETİNASIZLIQ | 217 |




### Təhlilin Nəticələri

Statistika göstərir ki, zorakılıq hallarına dair müraciətlər daha çox fiziki və psixoloji zorakılıqla bağlıdır. Cinsi zorakılıq müraciətlərinin az görünməsi, bu mövzunun hələ də cəmiyyət tərəfindən açıq müzakirə edilməməsi və müraciət edənlərin çəkinməsi ilə əlaqədar ola bilər.

### Gələcək İstiqamətlər

Azərbaycan Uşaq Qaynar Xətt Xidməti bu mövzularda fəaliyyətini genişləndirmək üçün:

- Zorakılıq hallarını erkən aşkar etmək üçün maarifləndirmə tədbirlərini artırılacaq.
- Zorakılığa məruz qalmış uşaqların psixoloji reabilitasiyasını gücləndiriləcək.

**Qeyd edək ki, Azərbaycan Uşaq Qaynar Xətt xidmətinin fəaliyyəti yalnız zənglərin cavablandırılması ilə bitmir. Eyni zamanda hər il əhalinin məlumatlılığının artırılması, qaynar xəttə daha çox diqqətin cəlb edilməsi, uşaq və yeniyetmələr üçün əlçatanlığın təmin edilməsi məqsədilə qaynar xətt xidmətinin əməkdaşları tərəfindən müxtəlif maarifləndirilmə tədbirləri həyata keçirilir.**

**Bunları aşağıdakı kimi sıralamaq olar:**

1. KİV və sosial şəbəkələr vasitəsilə Uşaq Qaynar Xəttin təbliğatının aparılması: Uşaq Qaynar Xətt xidməti tərəfindən hər il televiziyalara qaynar xəttə məxsus məlumatların və video roliklərin yayımlanması məqsədilə məktublar ünvanlanır. İl ərzində Xəzər TV və İTV televiziyası tərəfindən bu istiqamətdə dəstək göstərilmişdir. Bu televiziya kanalları ilə əməkdaşlıqda qaynar xəttin nümayəndələri canlı yayımlarda, sosial mövzulara aid verilişlərdə iştirak edərək qaynar xəttə dair müxtəlif məlumatların ötürülməsini həyata keçirmiş, həmçinin qaynar xəttin mövudluğu və fəaliyyət istiqamətləri ilə bağlı müsahibələr veriblər.

UNİCEF-in Azərbaycandakı ofisinin dəstəyi ilə İTV-də "Sabaha saxlamayaq" verilişinin 17 may Beynəlxalq Uşaq Qaynar Xəttləri gününə həsr olunmuş xüsusi buraxılışı həyata keçirilmiş, veriliş Qaynar Xətt və onun ölkəmizdəki işləkliyinə həsr olunmuşdur.

Həmçinin bu il Uşaq Hüquqları aylığı çərçivəsində Azərbaycan Uşaq Qaynar Xətti ölkədə uşaq hüquqlarının qorunması və onlara dəstək məqsədilə Bakı Metropoliteni ilə əməkdaşlıq etmiş, bu əməkdaşlıq çərçivəsində Metropolitenin stansiyalarında geniş miqyaslı maarifləndirmə aksiyaları həyata keçirilmişdir.

Bu ilin dekabr ayında Uşaq və Qadın Qaynar Xəttlərinin nümayəndələri uşaq müdafiəsi, qaynar xəttlərin fəaliyyəti və görülən işlərin təkminləşdirilməsi sahəsində beynəlxalq təcrübəni öyrənmək məqsədi ilə Bosniya və Herseqovinada təcrübə mübadiləsində də iştirak ediblər.

KİV-lə əməkdaşlıq nəzdində internet xəbər səhifələrinə də müxtəlif mövzularda müsahibələr verilmişdir. Eyni zamanda sosial şəbəkədə maarifləndirmə məqsədilə qaynar xəttin tanıtımı həyata keçirilmişdir.

İl ərzində Qaynar Xəttin tanıtım proqramı çərçivəsində İnstagram və Facebook hesablarındakı izləyici sayında ciddi artım müşahidə olunmuşdur:

İnstagram izləyicisi – 7706
Facebook izləyicisi – 7000

# Cari il ərzində sosial media hesablarına ümumi giriş sayı 500 000-dən  çox olmuşdur.

1. Uşaqlara qarşı zorakılıq halları artıb – Xəzər TV-yə müsahibə: https://youtu.be/dsVrWuZPJmU?si=PPmPRBbF9IYikfSJ

2. “Azərbaycan Uşaq Qaynar Xətti”nə edilən müraciətlərlə bağlı məqalə “Azərbaycan Uşaq Qaynar Xətt”inə edilən müraciətlər... (axar.az)

3. За 2023 год в службу «Детская горячая линия Азербайджана» поступило около 4500 обращений (видео) За 2023 год в службу «Детская горячая линия Азербайджана» поступило около 4500 обращений (видео) - Minval.az

4. Azərbaycan Uşaq Qaynar Xətt xidməti olaraq Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin və Bakı şəhəri üzrə Təhsil idarəsinin dəstəyi ilə Bakı şəhərində yerləşən 247 saylı tam orta məktəb şagirdləri ilə növbəti maarifləndirici tədbiri həyata keçirdik: https://www.instagram.com/p/C3pnr1Ct0l0/?igsh=bmN1ZXZ6b3A0Nzkw

5. Azərbaycan Uşaq Qaynar Xətt Xidmətinin əməkdaşları Child Helpline International tərəfindən həyata keçirilmiş, Beynəlxalq Kiber Təhlükəsizlik gününə həsr olunmuş vebinarda iştirak etdilər: https://www.instagram.com/p/C4GhhsAtCFu/?igsh=MWFwYWxiN29kYjh5bw==

6. Azərbaycan Uşaq Qaynar Xətt xidməti Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Peşə Agentliyi ilə əməkdaşlıqda maarifləndirmə tədbirlərini davam etdirir. Növbəti maarifləndirici tədbir İctimai İaşə və Xidmət üzrə Bakı dövlət Peşə Təhsil Mərkəzində həyata keçirildi. https://www.instagram.com/p/C4VYE1qNkvG/?igsh=MWE0MTZhZnc1cmNvbg==

7. Ümidli Gələcək STİB-in Azərbaycan Universiteti ilə rəsmi əməkdaşlığı davam edir. Rəsmi əməkdaşlıq çərçivəsində Sosial iş ixtisasının lV kurs tələbələri İctimai Birliyin dörd sosial xidmət mərkəzlərində istehsalat təcrübəsi keçirlər. https://www.instagram.com/p/C4qkLTktA-x/?igsh=NTBra2djNnd2MXhz

8. Azərbaycan Universitetinin Sosial iş" ixtisasının lV kurs tələbələri rəsmi əməkdaşlıq çərçivəsində İctimai Birliyin dörd sosial xidmət mərkəzlərində istehsalat təcrübələrinə davam edirlər. Təcrübə müddətinin davamı olaraq, hər bir tələbə mərhələli şəkildə müxtəlif mövzularda təqdimatlar hazırlayırlar. https://www.instagram.com/p/C5x-Dk2NHnU/?igsh=a2R6ZjE1c2xqM3U=

9. “Elevating Excellence: Uniting for Effective Child Protection with the Barnahus Model” Conference hosted by the Government of Montenegro in cooperation with Council of Europe and UNICEF https://www.facebook.com/share/p/xReE4yPA1oYsq4SL/?mibextid=WC7FNe

10. Ağcabədi regional “ASAN xidmət” mərkəzinin məzun könüllüləri Nərmin Quliyeva və Nəzrin Quliyeva tərəfindən könüllülər üçün “Uşaq qaynar xətti” mövzusunda maarifləndirici görüş təşkil olunub. https://www.facebook.com/share/p/rGoeQYPdTDBh7uHz/?mibextid=WC7FNe

11. Azərbaycan Uşaq Qaynar Xətt xidməti Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Peşə Agentliyi ilə əməkdaşlıqda maarifləndirmə tədbirlərini davam etdirir. Növbəti maarifləndirici tədbir Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində həyata keçirildi. https://www.instagram.com/reel/C6T2HmUt20F/?igsh=MWVxcXR6aGQ2cjFlcw==

12. Azərbaycan Universitetinin Sosial iş; ixtisasının IV kurs tələbələri rəsmi əməkdaşlıq çərçivəsində öz istehsalat təcrübələrinə davam edirlər. Gənclər sosial iş sahəsində müəyyən praktik biliklərə yiyələnməklə yanaşı, təcrübə müddətinin davamı olaraq, mərhələli şəkildə müxtəlif mövzularda təqdimatlar hazırlayırlar. https://www.instagram.com/p/C6sx4IpgPu9/?igsh=MWJpYTdoYjlxYXV1cw==

13. Azərbaycan Uşaq Qaynar Xətt xidməti Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Peşə Agentliyi ilə əməkdaşlıqda maarifləndirmə tədbirlərini davam etdirir. Növbəti maarifləndirici tədbir Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində həyata keçirildi. https://www.instagram.com/reel/C6-t91AtW33/?igsh=MW42cGl2bTJqdWExbg==

14. İTV veriliş - 17 May Beynəlxalq Uşaq Qaynar Xətləri gününə həsr olunmuş xüsusi buraxılış: https://www.instagram.com/reel/C7BsgvEN-Gt/?igsh=ZjM1MXpxc2NqNXJj

15. Azərbaycan Respublikasında İnsan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət planına uyğun olaraq “İnsan alverinə son!” adlı maarifləndirici tədbir keçirildi: https://www.facebook.com/share/p/YEWtA3J3LLdQTchC/?mibextid=WC7FNe

16. Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar olaraq Azercell valideyn himayəsindən məhrum uşaqlar üçün tədbir təşkil edib: https://www.facebook.com/share/r/dY6tT91bYvk48MvA/?mibextid=WC7FNe

17. Quba regional "ASAN xidmət" mərkəzinin könüllülərinin təşkilatçılığı və Uşaq Qaynar Xəttinin tərəfdaşlığı ilə Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş "Uşaq hüquqlarının qorunması" mövzusunda tədbir keçirilmişdir. https://www.instagram.com/reel/C7q29TDN3XF/?igsh=NGMyazBseGt6M2c3

18. 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş, uşaqları sevindirmək, onlarla əyləncəli vaxt keçirmək məqsədi ilə piknik təşkil edilmişdir. https://www.instagram.com/reel/C7rba3uN2TH/?igsh=MWo0emc5cWJ3ZTlmZA==

19. Ümidli GələcəK Sosial Təşəbbüslər İctimai Birliyinin əməkdaşı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 28-30 may tarixlərində təşkil etdiyi "Erkən uşaqlıq dövrünün inkişafı - koordinasiyalı fəaliyyət" mövzusunda təlimdə iştirak edib: https://www.instagram.com/p/C73m9dSAZXj/?igsh=bnV1eWduMThwMGJu

20. Azərbaycan Universitetinin təşkilatçılığı ilə 31.05.2024-cü il tarixində "Kariyera Günü" təşkil edilib. https://www.instagram.com/p/C79k4PGNE_d/?igsh=NXp1c291cWRqa3p1

21. Azərbaycan Uşaq Qaynar Xətt xidməti Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Peşə Agentliyi ilə əməkdaşlıqda maarifləndirmə tədbirlərini davam etdirir. Növbəti maarifləndirici tədbir Xidmət Sahələri üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzinin tələbələri ilə Sumqayıt Gənclər Evində həyata keçirildi. https://www.instagram.com/reel/C8B6PpeAVTw/?igsh=MW5iNjJqOTdlaGl1cg==

22. İnsan hüquqları aylığı çərçivəsində Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai Birliyi tərəfindən, Bakı Biznes Universiteti ilə rəsmi əməkdaşlıqda mərkəzdə təcrübə keçən "Sosial iş ixtisası tələbələri üçün "Uşaq hüquqları və Yuvenal Ədliyyə" mövzusunda təlim təşkil edildi. https://www.instagram.com/p/C8UT1NFNEc4/?igsh=ZDJ1c2xvMGQyeGY5

23. Azərbaycan Uşaq Qaynar Xətt xidməti Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Peşə Agentliyi ilə əməkdaşlıqda maarifləndirmə tədbirlərini davam etdirir. Növbəti maarifləndirici tədbir Tikinti və Quraşdırma İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində həyata keçirildi. https://www.instagram.com/reel/C8WhTxBAxWT/?igsh=MXh6eXFwZHo0bHo4ZA==

24. "Qaynar xəttin əsas iş prinsipləri" mövzusunda Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi tərəfindən dövlət qurumlarının əməkdaşlarına təlim keçirilib. Təlim zamanı Azərbaycan Uşaq Qaynar xəttinin əməkdaşları qaynar xəttin tanıtımı həyata keçirmiş, qaynar xəttin əsas fəaliyyət istiqamətləri və iş prinsipləri haqqında məlumatlar vermişdir. "Qaynar xəttin əsas iş prinsipləri" mövzusunda təlim keçirilib - AR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (family.gov.az)

25. "Mentalitet yoxsa yoxsulluq? - qızların tam təhsil almasına nəyin mane olduğunu anlamaq" mövzusunda müsahibə. https://media.az/society/mentalitet-ili-bednost-media-az-razbiraetsya-chto-meshaet-devochkam-poluchit-polnoe-obrazovanie

26. "Məktəbdə və işdə mobbinq - nə etməli?" mövzusunda TV1-ə verilmiş müsahibə. https://youtu.be/oGZqZzX2sQA?si=BSgFsu4RSiCKhf1i

27. "Qaynar xəttin əsas iş prinsipləri" mövzusunda Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi tərəfindən dövlət qurumlarının əməkdaşlarına təlim keçirilmiş növbəti təlim. https://family.gov.az/az/news/qaynar-xettin-esas-is-prinsipleri-movzusunda-novbeti-telim-kecirilib: https://www.facebook.com/share/v/1AzxLygEhW/?mibextid=KsPBc6

28. "İnternatlarda yaşayan uşaqlar onsuz da travmalıdır, onlara dəstək göstərilməlidir" mövzusunda açıqlama: https://redaktor.az/news/social/255014-internatlarda-yasayan-usaqlar-onsuz-da-travmalidir-onlara-destek-gosterilmelidir.

29. 23 Sentyabr 2024-cü il tarixində UNİCEF Azərbaycan ofisinin nümayəndələri Ümidli Gələcək təşkilatının sosial xidmət mərkəzlərinə səfər ediblər: https://www.instagram.com/p/DAV2RHUNrv-/?igsh=eW5kZWtkb3RmMHEy

30. Uşaqların yay tətilini daha maraqlı və səmərəli təşkil etmək üçün nələr edilməlidir? – müsahibə https://www.old.muallim.edu.az/news.php?id=31298

31. 116111 Uşaq Qaynar Xətti – Əkinçi'ə verilən müsahibə: https://www.youtube.com/watch?v=1hYfUnyuNlQ

32. Elm və Təhsil Nazirliyi ilə Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı birgə keçirilən görüş; https://www.muallim.edu.az/news/670428467f3cac8af7de09fa

33. Uşaqlar hüquqlarını bilməlidir: Qaynar Xəttin rolu mövzusunda müsahibə; https://www.youtube.com/watch?v=MOLeKTPCyeo

34. Bakı Biznez Universitetinin "Ümidli Gələcək" STİB ilə əməkdaşlıq momerandumu; https://bbu.edu.az/az/news/23/417

35. Uşaqların gizli problemlərini necə həll etməli? – Azərbaycan müəllliminə verilmiş müsahibə; https://www.muallim.edu.az/news/671f52501e144ed64a37326f

36. "Uşaq Qaynar Xətti" 2024-cü ilin 3-cü rübünün nəticələrini açıqladı; https://qafqazinfo.az/news/detail/usaq-qaynar-xetti-2024-cu-ilin-3-cu-rubunun-neticelerini-aciqladi-451853

37. "Azərbaycan Uşaq Qaynar Xətti" əməkdaşları 46 nömrəli tam orta məktəbi ziyarət edərək "Yaşıl dünya naminə həmrəy olaq" mövzusu ətrafında şagirdlərlə söhbətlər apardılar; https://www.facebook.com/watch/?mibextid=KsPBc6&v=1092456975963534&rdid=DnngRyvAphLlncIB

38. COP-29 Azərbaycanın beynəlxalq əlaqələrinin möhkəmlənməsinə müsbət töhfə verəcəkdir- müsahibə: https://qht.az/details/az/37538?fbclid=IwZXh0bgNhZW0CMTEAAR3dVsTaVD5BEjZRY0_X6Z_8vsSA6j_QlGk KfBz0VabfonmZFM0sRL9fXnQ_aem_UUTNpEXzbh3csNQIfFu9Dg

39. "Uşaqlar və gənclər diqqət mərkəzindədir" – müsahibə: https://br.az/society/76064/deti-i-molodezh-v-centre-vnimaniya/https://br.az/society/76064/deti-i-molodezh-v-centre-vnimaniya/

40. Uşaq Qaynar Xətti – Xəzər xəbərin Uşaq Qaynar Xətti ilə bağlı reportajı: https://www.youtube.com/watch?v=MkU9HFNiRDY

41. Uşaq Qaynar Xəttinin əməkdaşları Bosniya və Herseqovinada beynəlxalq təcrübə mübadiləsində iştirak ediblər: https://www.instagram.com/p/DDj4gBPtTuS/?igsh=MW56NzN6cmtwcXdpdw

# Müraciətlərin mərkəzə yönləndirilməsi

Bəzi hallarda qaynar xəttə elə müraciətlər ünvanlanır ki, həmin müraciətlərin ətraflı araşdırılması, valideyn və uşaqlara dəstək məqsədilə ailənin birbaşa dinlənilməsi ehtiyacı yaranır. Bu kimi hallarda müraciətçi mərkəzə dəvət olunaraq individual fəaliyyət qurulur. 2024-cü il ərzində mərkəzə bu qəbildən olan 140 ailə dəvət olunmuş, ailələrin uşaqları ilə isə 636 sosial-psixoloji reabilitasiya işi həyata keçirilmiş, ailələrə müraciətlərindən asılı olaraq hüquqi, psixoloji və psixososial yardım göstərilmişdir. Daxil olan müraciətlərə əsasən 62 məktəb və ailəyə təcili-təxirəsalınmaz səfər təşkil edilmişdir.



Reabilitasiya mərkəzində qrup terapiyası və uşaqların asudə vaxtının təşkili məqsədilə 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ərəfəsində “Nizami Gəncəvi” parkında piknik, 24 Dekabr tarixində isə “Yeni il” adlı tədbir təşkil olunmuşdur.



Əlavə olaraq, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə AUQX xidmətinin tanıtımını həyat keçirmək məqsədilə Bakı və Sumqayıt şəhərlərini əhatə edən 11 peşə məktəbində, 5 Quba şəhərində yerləşən məktəblərdə, 5 Ağcabədi rayonunda yerləşən məktəblərdə və 5 Bakı şəhərində yerləşən ümumi orta təhsil müəssisələrində maarifləndirmə tədbirləri keçirilmişdir.



# Yazılan rəsmi məktublar

***2024-cü ilin Yanvar-Noyabr tarxiləri ərzində qaynar xəttə daxil olmuş müraciətlərin təhlili, araşdırılması və müvafiq yardımların göstərilməsi, eyni zamanda qaynar xəttin təbliğatına dəstək məqsədli tərəfimizdən 320 məktub ünvanlanmış və 138 cavab məktubu daxil olmuşdur.***

Eyni zamanda qeyd edək ki, qaynar xətt əməkdaşları daxil olan müraciətlərinin hər birinin birbaşa AUQX çərçivəsində həll edilməsi mümkün olmadığı hallarda, həmçinin məlumatların doğruluğunun yoxlanılması və araşdırılması məqsədilə fəaliyyətini müvafiq dövlət qurumları və qeyri-hökümət təşkilatları ilə əməkdaşlıqda həyata keçirir. Ehtiyac yarandığı təqdirdə daxil olan müraciətlər rayon üzrə müvafiq İcra Hakimiyyəti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə, Daxili İşlər Nazirliyi, DİN-nin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi, Ədliyyə Nazirliyi, İcra və Probasiya Şöbələri, Bakı şəhər Baş Polis İdarəsinə, Səhiyyə Nazirliyinə, Elm və Təhsil Nazirliyinə, TƏBİB, İcbari Tibbi Sığorta Agentliyi, Bakı şəhər Təhsil İdarəsinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Sosial Xidmətlər Agentliyi, Psixi Sağlamlıq Mərkəzi, yerli QHTlər və dövlət nəzdində sığınacaqlara yönləndirilir.

*Bakı şəhərindən olan müraciətlərdən başqa “Azərbaycan Uşaq Qaynar Xətt” xidmətinə Ağdam, Ağdaş, Zərdab, Goranboy, Şəki, Şamaxı, Gəncə, Füzuli, Qazax, Tovuz, İmişli, Ağcabədi, Ağstafa, Kürdəmir, Ucar, Beyləqan, Bərdə, Qəbələ, Quba, Qax, Xaçmaz, Xudat, Ağsu, Lənkəran, Lerik, Masallı, Astara, Sabirabad, Ağcabədi, Cəlilabad, Biləsuvar, Saatlı, Zaqatala, Zərdab, Şəmkir, Şirvan, Salyan, Yevlax, Yardımlı, Oğuz, Göyçay, Şabran, Qobustan, Sumqayıt, Qaradağ və Mingəçevir, Naxçıvan şəhəri ilə yanaşı, Türkiyə, Dağıstan, Fransa, Almaniya, İtaliya, ABŞ, Pakistan, Rusiya, Ukrayna, Qazaxıstan, Özbəkistandan da müraciətlər daxil olmuşdur.*

# Görüşlərin Foto Hesabatı


















FİZİKİ
@ushaqqaynarxetti
ZORAKILIĞIN
ƏLAMƏTLƏRİ
İstatistikleri gör
Tekrar öne çıkar


bilməyəcəyi uşaqlara öyrədilməlidir.
Diqqət!
Olar
İstatistikleri gör
Tekrar öne çıkar


@usaqqaynarxetti
İstatistikleri gör
Tekrar öne çıkar
kamala_muslum ve 806 diğer kişi beğendi


@usaqqaynarxetti
İstatistikleri gör
Tekrar öne çıkar
kamala_muslum ve 806 diğer kişi beğendi


usaqqaynarxetti


usaqqaynarxetti


usaqqaynarxetti


usaqqaynarxetti and 2 others


usaqqaynarxetti


usaqqaynarxetti
COP29



https://childhelpline.az